# ANA VƏTƏNİMDƏ UNUDULMAZ BİR GÜN

*(Əvvəli ötən saylarımızda)*

Fırtınadan sonrakı dənizi xatırladan auditoriyanın ruhlandıran baxışları altında çıxışımı "Dəstur,Şuşada bozqurd var!"adlı şeirimi söyləyərək "Qarabağ Azərbaycandır!" nidasıyla bitirdim. Şeirimi bitirər-bitirməz fırtınaya hazırlaşan Xocavənd dənizinin dalğalarının alqış sədaları gurladıqca gurladı və qürurumu artırdıqca artırdı. Mən bərəkətli bir yağıştək yağan bu alqışın qarşısında hərəkətsiz qala bilməzdim. Buna görə də Xocavənd əhalisinə, rayon rəhbərliyinə və cənab başçımıza sonsuz təşəkkürümü bir daha bildirib dəfələrlə əyilərək qarşılarında baş əydim. Bildim ki, bu qaynar münasibətin qarşısında bu, mənim mənəvi borcumdur və bu dəyərin qarşısında sonsuz sayda baş əyməyə dəyər, mənim dəfələrlə baş əyməyim nədir ki? Xocavəndin qarşımda dayanan ümmanının heç zərrəsi belə deyil.

Çıxışımı bitirdikdən bir neçə dəqiqə sonra tədbirin rəsmi hissəsini sona çatdırmaq üçün söz tədbirin birinci dərəcəli təşkilatçısı, Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı çox hörmətli Eyvaz müəllim Hüseynova verildi. Cənab başçımız ilk olaraq hər kəsi salamladı, sonra Xocavənd Rayon İcra Hakimiyyəti rəhbərliyinin Vətən müharibəsindən sonra gördüyü və görəcəyi işlər, proyektlər, layihələr haqqında iştirakçılara ətraflı məlumat verdi. O, bildirdi ki, Xocavənd rayon rəhbərliyi Şəhidlərin əziz xatirəsini əbədiləşdirmək, yad etmək, yaddaşlarda saxlamaq üçün öz səyini heç bir zaman əsirgəməyib və əsirgəməyəcəkdir. Şəhərciyin bir neçə yerində Xocavənddən olan və Xocavənddə Şəhidliyə ucalan qəhrəmanların xatirəsinə həsr olunan abidələr buna misaldır. İştirakçıların bir az əvvəl izlədikləri Xocavənddə Şəhid olan qəhrəmanlar üçün hazırlanan video-rolikin hər anı, hər saniyəsi bilavasitə cənab başçının rəhbərliyinin, təşkilatçılığının, yuxusuz gecələri, gərgin əməyi, sona qədər əsirgənməyən səyi və təşəbbüsü nəticəsində hazırlanmışdır. Həmçinin cənab başçı 44 günlük şanlı Vətən müharibəmizdən sonra dəyişən geosiyasi maraqlardan, yerini tapan haqq-ədalətdən, bütün dünyaya məlum olan əsl reallıqlardan və həqiqətlərdən söhbət açdı.

Ölkəmizə, dövlətimizə və millətimizə açıq-aşkar düşmənçilik siyasəti yeridən qərb ölkələri, o cümlədən Fransa və cənub qonşumuz İran haqqında da fikirlərini, bu məkrə qarşı hansı tədbirləri almağımız haqqında tövsiyələrini bildirdi. Eyvaz müəllim qeyd etdiki, mənfur düşmənin dərsini alıb geri otuzdurulmasına görə, qələbəmizə görə bizə qısqanclıqla düşmən fikirlər bildirən qərb ölkələrinin bizim hədəflərimizlə, etdiklərimizlə və reallığımızla qəti razılaşması və nəhayət, 30 ildən sonra Qarabağımızın azad edilməsi - bütün bunlar Şəhidlərimizin, Qazilərimizin və cənab Ali Baş Komandanımızın rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun sayəsində həyata keçdi. Biz də öz növbəmizdə sona qədər çalışırıq ki, onların ruhlarını şad edək, xatirələrini əbədiləşdirək, əmanət olan ailələrinin yaşayışları ilə maraqlanaq və onlara əlimizdən gələn köməyi əsirgəməyək. Eyvaz müəllim çıxışında vurğuladı ki, hazırda təqdimatı keçirilən kitabın respublikamızda bir neçə mədəniyyət ocaqlarında, kitabxanalarda təqdimatı keçirilib. Növbəti təqdimatı isə bir qədər gec olsa da doğma el-obasında, yəni burada, bu məkanda keçirilir. Mən isə fikirləşdim ki, bu heç də gec deyil. Bir fikir var ki, tez



olan yaxşı olmaya da bilər, əsas odur ki, gec olsun, güc olsun. Eyvaz müəllim mənim haqqımda hazırlanmış video-rolikdə olmayanbir çox məlumatları ?əlaçı olduğumu, pianoda ifa etdiyimi və sərbəst şəkildə ingilis dilində danışa bildiyimitədbir iştirakçılarının diqqətinə çatdırdı.Cənab başçımızın dəyərli vaxtını ayırmaqla mənim yaradıcılığımı, ümumilikdə, fəaliyyətimi bu qədər diqqətlə, dərindən izləməsi, sosial şəbəkələrdəkipaylaşımlarıma diqqətlə nəzər yetirməsi, izləməsi məni təəccübləndirdi və çox sevindirdi. Hörmətli Eyvaz müəllim söhbəti valideynlərimə də yönəldərək onlara da təşəkkürünü bildirdi. Sonra yaradıcılıq, həyat fəaliyyətimdə olan nailiyyətlərimə görə mənə təşəkkürünü bildirərək, gələcək həyatımda və yaradıcılığımda uğurlar arzulayaraq çıxışını bitirdi və tədbirin rəsmi hissəsi bununla da yekunlaşdı. Tədbir iştirakçıları ilə bərabər mən də gözəl, ətraflı, səmimi çıxışa görə Eyvaz müəllimi dayanmadan sürəkli alqışlarla alqışladım.

Sonra isə aparıcı tədbirin rəsmi hissəsinin yekunlaşdığını və bədii hissəsinin başladığını bildirdi. Bədii hissədə Xocavənd rayon Salakətin kənd tam orta məktəbinin şagirdlərinin çıxışlarına yer verildi. Həmyaşıdlarımınböyük həvəs və intonasiya ilə mənim şeirlərimdən hissələri xüsusi məharətləsəsləndirmələri məni daha da qürurlandırdı, ürəyimi dağa döndərdi. Şagirdlərin çıxışından bütün tədbir iştirakçıları çox razı qaldılar, bu onların ara verməyən fasiləsiz alqış sədalarında da özünü göstərirdi. Mən də onların çıxışından olduqca məmnun idim.

Şagirdlərin çıxışından sonra özlüyümdə təqdimatın kuliminasiya nöqtəsi saydığım, mənim üçün ayrıca qürur və fəxr dəqiqələri olan anlar yetişdi. Əvvəlcə Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov və Kürdəmir Regional Mədəniyyət İdarəsinin rəisi Faiq Xudanlı ayağa qalxdı. Hörmətli Eyvaz müəllim özünün 7 dekabr 2022-ci il tarixli 69 nömrəli Sərəncamına əsasən "Hərbi-vətənpərvərlik ruhunun təbliği istiqamətindəki səmərəli fəaliyyətinə və bədii yaradıcılığında Şəhidlərimizin əziz xatirəsinə daim böyük diqqət və həssaslıqla yanaşdığına görə" Fəxri Fərmanı ilə məni təltif etdi və qiymətli hədiyyə bağışladı.Hörmətli Eyvaz müəllimə bu diqqətinə və dəyərinə görə xüsusi minnətdarlığımı bildirirəm. Hələ indiyə qədər sırf bu fəaliyyətimlə bağlı belə bir Fəxri Fərman almamışdım. Bu mənə verilən ən böyük mükafatlardan biridir. Şəhidlərimiz haqqında yazmaq, onların həyatını işıqlandırmaq mənim borcumdur. Ancaq mənim fəaliyyətimi yaxından izləyərək fəaliyyətimə yüksək qiymət vermək hörmətli Eyvaz müəllimin ürəyinin böyüklüyüdür.

Sonra isə Kürdəmir Regional Mədəniyyət İdarəsinin rəisi hörmətli Faiq Xudanlı məni "Mədəniyyət sahəsində səmərəli fəaliyyətinə görə" təşəkkürnamə ilə təltif etdi. Həmin an özümü dünyanın ən xoşbəxt insanı hesab etdim. Müsbət mənada o qədər qarışıq duyğuların içərisində idim ki, hələ də o duyğuların təsirindən ayılmamışam və istəsəm də ayıla bilmərəm. Təbii ki, heç ayılmaq da istəmərəm. Mənim üçün əzizdən əziz olan kəslərin mənə ayırdıqları diqqət, əməyimə verdikləri bu qədər yüksək dəyər məni daha da ruhlandırdı, qürurumu elə ucalıqlara aparıb çatdırdı ki, indi də özümü zirvələrin zirvəsindəki kimi hiss edirəm. Vətən övladlarının mənim yaradıcılıq fəaliyyətimi, əməyimi bu qədər yüksək qiymətləndirmələri ürəyimi gül kimi açdı, məni quş kimi qanadlandırdı, sevincim birə min artaraq həddini-hüdudunu tanımadı, daşdıqca daşdı. Təbii ki, tədbirə bəzək olan, tədbiri xüsusi canlandıran, rövnəq verən qəhrəman Xocavənd xalqının sürəkli alqışları da tamam başqa cür insanı ruhlandırır və ilhamlandırırdı. Bu böyük ziyalılarımızın həddən ziyadə təbii səmimiyyətləri mənim üçün çox böyük stimul idi. Eyvaz müəllimin zərgər dəqiqliyi ilə seçdiyi və mənə layiq bildiyi hədiyyələr də unudulmaz xatirələrimin bir hissəsi kimi özünü başqalaşdırıb xüsusiləşdirmişdir. Fəxri Fərman və təşəkkürnamənin təqdim edilməsindən sonra tədbirə xüsusi rəngini qatan aparıcı Ramil Əhməd yekun çıxışını etdi. Çıxışında hələ də unutmadığım və unuda bilməyəcəyim bu sözləri söylədi: "Biz inanırıq ki, yaşadığı bu xoş gün, bu xoş anlar, dəqiqələr Sevindiyin həyatında, yaradıcılığında xüsusi bir an kimi, əlamətdar bir gün kimi təqvimə düşəcəkdir. Bu gözəl tədbirdən illər keçsə də Sevindik əziz, doğma torpağında, sakini olduğu Xocavənd torpağında yaşadığı bu xoş anları, bir an belə olsun,unutmayacaq, qəlbinin, fikrinin, duyğularının ən uca yerində saxlayacaqdır". Tədbirin sonunda "Möhtəşəm Zəfərin nişanəsi" adlı kitabımı şəhid valideynlərinə - şəhid Şirxan Quliyevin atası İsmixan əmiyə, şəhid Qara Balakişiyevin atası Əmirxan əmiyə, şəhid Elmin Mirzəyevin atası Əvəz əmiyə, həmçinin şəhid Zülfüqar Fərəcovun, şəhid Xəyal Namazovun, şəhid Tural Abdullayevin və şəhid Elzamin Tağıyevin ailələrinə şəxsən özüm həm kədər hissi ilə, həm də fəxrlə təqdim etdim. Tədbircənab başçımız Eyvaz müəllimə təqdimatı keçirilən kitabımıhədiyyə etməyimlə sona çatdı. Onu da qeyd edim ki, Beyləqandan olan şəhidimiz Vaqif İsmayılzadənin atası Vüqar əmi və şəhidimizin həyat yoldaşı Samirə xanım da mənim dəvətimlə tədbirdə iştirak edirdilər. Tədbirdə iştirak etdiklərinə görə Vüqar əmiyə və Samirə bacıma dərin minnətdarlığımı bildirirəm.



Mən bir daha öz növbəmdə əziyyət çəkib tədbir üçün toplaşan ana yurdumun doğmadan doğma, əzizdən əziz sakinlərinə ehtiramımı bildirmək üçün onların qarşısında baş əydim. Mənim ana yurdum Xocavənd təkcə belə bir gözəl tədbirə vəsilə olduğu üçün yox, hər şeyə görə təşəkkürlərin ən zirvədə olanına, bir sözlə, hər şeyin ən yaxşısına layiq idi. Mən tədbir iştirakçılarına veriləcək olan kitabları imzaladım və aidiyyatı üzrə tədbir iştirakçılarına hədiyyə etdim. Tədbir artıq bir neçə dəqiqə idi ki, qurtarmışdı. Biz cənab başçımız Eyvaz müəllim Hüseynov və Mədəniyyət Nazirliyinin Kürdəmir Regional İdarəsinin rəisi hörmətli Faiq müəllim Xudanlı ilə birgə Mədəniyyət Evinin həyətinə çıxdıq. İnanın ki, tədbirdən çıxanlar həyətdə gözləyirdilər, nahar vaxtı olmasına baxmayaraq heç kim oradan ayrılmaq, getmək istəmirdi, elə bil ki onlar ara fasilə üçün həyətə çıxmışdılar və yenidən tədbir üçün zala qayıdacaqdılar. Binada və həyətdə şəhid ailələri və tədbir iştirakçıları ilə xatirə şəkilləri də çəkdirdik. Beləliklə, müvəqqəti vida zamanı gəlib çatmışdı. Bu, təbii ki, müvəqqəti vida idi. Mən ana yurdumdan ayrılsam da ruhum, qəlbim, fikrim buranı çoxdan özünə məskən etdiyi üçün bu gözəl yerlərdən ayrılmırdı və indi də ayrılmır. Ayrılmayacaq da. Düşmən qüvvələr nə qədər əlləşib-vuruşsalar da Vətənimin digər gözəl guşələrini, eləcə də Xocavəndimi Azərbaycandan ayıra bilməyəcəklər, necə ki Şəhidlərimiz, Qazilərimiz, rəşadətli Azərbaycan Ordusu, mətin Azərbaycan xalqı Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi altında dəmir yumruq kimi birləşərək mənfur düşmənin başına zərbə endirməklə onu məhv etdi və o pis arzusunu gözündə qoydu. Mədəniyyət Evinin həyətində Eyvaz müəllimlə və rayon rəhbərliyi ilə, həmçinin ictimaiyyət nümayəndələri ilə bir daha söhbət etdik. Sonuna qədər onların qayğısı, diqqəti və söhbəti ilə əhatələnmişdim.

Cənab başçımız, eləcə də Faiq müəllim, Xocavənd rayonunun Hərbi Komissarı çox hörmətli Bəxtiyar müəllim Hümbətov ilə səmimi və unudulmaz söhbət etdik. Eyvaz müəllim tədbirin necə keçməsi ilə bağlı təəssüratlarımı öyrənmək istədi.

***(Davamı var)***

***Sevindik NƏSİBOĞLU,***
***9-cu sinif şagirdi,***
***şair-publisist, AJB üzvü***